AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ:İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri i.f.d. dos. E. Q. Məmmədov**

# « SOSIAL IQTISADIYYAT » FƏNNİ ÜZRƏ

# İŞÇİ TƏDRİS PROQRAMI

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin кodu:** | 00807 |
| **Fənnin növü:** | əsas |
| **Tədris ili:** | - |
| **Fənnin tədris semestri:** | yaz |
| **Fənnin tədris forması:** | əyani |
| **Tədris dili:** | Azərbaycan |
| **Fakültə:** | İqtisadiyyat və idarəetmə |
| **Qrup:** | |
| **Tədris yükü:** | 60 (30/30) |
| **Kredit sayı:** | 4 kredit |
| **Kafedra:** | «İctimai idarəetmə və sosial innovasiyalar» |

## II. MÜƏLLİM HAQQINDA MƏLUMAT


| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Əliyeva Nərgiz Əmiraslan qızı** |
| **E-mail ünvanı:** | n.aliyeva@unec.edu.az |
| **İş telefonu:** | 012-564-05-37 |
| **Tələbələr üçün qəbul vaxtları:** | 5-ci günlər 10.00-13.00-dək |

## FƏNNİN TƏSVİRİ

İqtisadiyyat və kadrların idarə edilməsi sahəsində mütəxəssislərin peşə hazırlığında “Sosial iqtisadiyyat ” kursu xüsusi yer tutur.

Kurs tətbiqi nəzəriyyə və empirik təhlilə əsaslanır. Kurs nəzəriyyə ilə dövlət siyasəti arasındakı əlaqəni vurğulayır. Müzakirə olunan mövzular aşağıdakılardır: sosial iqtisadiyyatın strukturu, sosial problemlərin həlli, iqtisadi artımın amilləri, sosial iqtisadiyyatın təşkili formaları,insan həyatının iqtisadi qiymətləndirilməsi və bu kimi digər mövzular müzakirə olunacaqdır.

## KURSUN ƏSAS MƏQSƏDİ

Bu fənn tələbələrə Sosial iqtisadiyyat haqqında ümumi məlumat, onun predmeti, səviyyələri, eyni zamanda müxtəlif fəaliyyət sahələrində sosial iş qaydaları və prosesini əhatə edir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilir :

- Fənnin predmeti, məqsədi və vəzifələrini öyrətmək;
- Sosial iqtisadiyyatın strukturunu açıqlamaq və sosial problemləri həll etmək;
- Sosial iqtisadiyyatın təşkili formalarını və onun tənzimlənməsini açıqlamaq;
- Sosial iqtisadi siyasətin mahiyyətini və əsas əlamətlərini izah etmək;
- İnklüziv iqtisadiyyatın və dayanıqlı sosial-iqtisadi inkişafı açıqlamaq.

## FƏNNİN TƏDRİS METODOLOGİYASI :

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, şifahi təqdimat, fərdi işləmə, komanda şəklində məsələrin həlli, kiçik qruplarda iş, işgüzar oyunlar, tapşırıqların yerinə yetirilməsi, xüsusi nümunələrin öyrənilməsi və təhlili, test tapşırıqlarının yerinə yetirilməsi kimi tədris üsullarından istifadə edilir.

Tədris və təlim prosesində yerli və xarici ədəbiyyatlardan, internet resurslarından götürülmüş materialların, nümunələrin və keyslərin müzakirəsinə və həlli yollarının tapılmasına istiqamət verilərək, diqqət ayrılacaq. Biliklərin tətbiqi bacarıqlarını formalaşdırmaq üçün tələbələrə mövzuya aid tapşırıqlar həll edəcəklər.

Yeni mövzunun tədrisindən qabaq tələbələrə tapşırılmış materiallar ilə tanış olunmalıdır.

## ÖYRƏNİLMƏNİN NƏTİCƏLƏRİ:

Tələbələr tərəfindən fənnin mənimsənilməsinin əsas vəzifələrinə aşağıdakılar daxildir:

- müasir dünyada baş verən poblemlər meyilləri və amilləri haqqında anlayışın formalaşdırılması;
- əhali haqqında məlumat mənbələrinin təhlili vərdişlərinə, göstəricilərin hesablanması üsullarına yiyələnmək;
- müasir dövrün sosial problemlərinin təhlili üçün ümumi elmi əsaslandırma və modelləşdirmə üsullarını tətbiq etmək bacarığının formalaşdırılması;
- tələbələrin şəxsi potensialının, onların sosial məsuliyyətli davranışa həvəsinin inkişafı və aktuallaşdırılması, onlarda fəal vətəndaşlıq və peşəkar mövqenin formalaşdırılması.

## FƏNNİN MÜHAZİRƏ MÖVZULARI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

## FƏNN : Sosial iqtisadiyyat

Mövzu 1. Sosial iqtisadiyyatın mahiyyəti,predmeti və obyektləri
Mövzu 2. Sosial iqtisadiyyatın strukturu
Mövzu 3. Sosial problemlər və onların həlli yolları
Mövzu 4. Sosial transformasiyanın iqtisadi amilləri
Mövzu 5. İqtisadi artımın sosial amilləri
Mövzu 6. İctimai sektorun iqtisadiyyatı
Mövzu 7. Sosial iqtisadiyyatın təşkili formaları
Mövzu 8. Sosial iqtisadiyyatın tənzimlənməsi
Mövzu 9. Sosial-iqtisadi siyasətin mahiyyəti və əsas əlamətləri
Mövzu 10. İnsan həyatının iqtisadi qiymətləndirilməsi
Mövzu11.İqtisadi həyatın mədəni resursları iqtisadi xərclər,satınalmalar,tənzimləmə imkanları.
Mövzu 12.Vətəndaşların özünütəşkil resursları və onların iqtisadi əhəmiyyəti
Mövzu 13. Sosial resurslar şirkətin rəqabət üstünlüyü kimi
Mövzu 14. Xarici sosial problemlər,şirkətlər üçün yeni xərclər və yeni qaanclar
Mövzu 15. İnklüziv iqtisadiyyat və dayanıqlı sosial-iqtisadi inkişaf.

## KORREKVİZİTLƏR:
## VIII. FƏNNİN TƏDRİSİ METODİKASI

Kursda aşağıdakı təlim üsul və formalarından istifadə olunur:
- Mühazirələr
- Seminarlarda problemlərin həlli və müzakirəsi
- Kompyuter laboratoriyalarında müstəqil iş (Excel və STATA proqramlarında ev tapşırıqlarının yerinə yetirilməsi, iqtisadi məlumatlarla işləmək, internetdə tədqiqatların aparılması)
- Ədəbiyyatla müstəqil iş

## FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

| | Mövzular | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1.** | Sosial iqtisadiyyatın mahiyyəti,predmeti və obyektləri | Bu bölmədə sosial iqtisadiyyatın mahiyyəti,onun obyektləri və subyektləri,sosial iqtisadiyyatın obyektləri və aspektlərinin qarşılıqlı əlaqəsi haqqında danışılacaq. | 1.Биггарт Н. Социальная организация и экономическое развитие / Пер. М.С. Добряковой / / Экономическая социология. 2001. № 5. С. 49-58. www.ecsoc.msses.ru; Fukuyama F.Trust. The Social Virtues and the Creation of Prosperity. N.Y.: Free Press, 1996 2.Delhey J.} Newton K. Who trusts? The origins of social trust in seven societies / / European Societies. 2003. Vol. 5. № 2. P. 93-137 |
| **2.** | Sosial iqtisadiy strukturu | Bu mövzuda əsas məqsəd cəmiyyətin sosial strukturu, sosial bazar iqtisadiyyatının konsepsiyası, sosial iqtisadiyyatın strukturunun formalaşması və sosial iqtisadiyyatın inkişaf amilləri haqqında danışılacaq. | Шабанова МЛ. Социоэкономика и социально-экономическая политика / / Экономическая наука современной России. 2007. № 3. С. 34-48. |

| | | | |
|---|---|---|---|
| | | | Keizer P. A socio-economic framework of interpretation and analysis / / International Journal of Social Economics. 2005. Vol. 32. N 1-2. P. 155-173. |
| **3.** | Sosial problemlər və onların həlli yolları | Mövzuda sosial iqtisadiyyat şəraitində gəlir siyasəti,yoxsulluğun azaldılması,əhalinin məşğulluğunun artırılması üçün sosial siyasət və əhalinin sosial müda- fiəsinin təşkili problem- ləri öyrənilir. | Etzioni A. Toward a new socio-economic paradigm / / Socio-Economic Review. 2003. N 1. P. 105-118<br>Социоэкономика (для экономистов, менеджеров, госслужащих): Учебное пособие / М.А. Шабанова. — Москва: Экономика, 2012. - 559 с |
| **4.** | Sosial transformasiyanın iqtisadi amilləri | Mövzunun öyrənilməsin- də məqsəd sosial iqtisa- diyyatın gələcək inkişaf istiqamətlərini,buradakı mülkiyyət münasibətləri- ni,sosiallaşma prossində sahibkarlığın rolunu və dövlət büdcəsində sosial- yönümlülüyü mənimsə- məkdir. | Юрьева Т.В. Социальная экономика: учеб.для студ. вузов, обучающихся по эконом. спец. - М. : Дрофа, 2001. - 352 с.<br>Беккер Гэри. Экономика семьи и макроповедение // США: экономика, политика, идеология. – 1993. - N 2- |
| **5.** | İqtisadi artımın sosial amilləri | Mövzumuzun məzmunu sosial iqtisadiyyatda in- san kapitalından,əmək münasibətlərinin sosial- laşması məsələlərindən, sosial partnyorluq siste- mindən ibarətdir. | Макклелланд Д. Мотивация человека. – М.: ЮНИТИ-ДАНА, 2007<br>Слезингер Г.Э. Социальная экономика плюс социальная организация труда // Человек и труд. 2006. - № 7. |
| **6.** | İctimai sektorun iqtisadiyyatı | Mövzuda bazar iqtisadiy- yatında ictimai sektorun tarixi rolu,miqyası və dinamikası,qeyri-kom- mersiya sektorunun ma- hiyyəti öyrəniləcək. Qeyri-kommersiya sektorunun faydalılığında göstərilən komponentlərin birləşməsindən alınan uğurlu nəticələr də mövzuda yer alır. | Coleman J.A. Rational Choice Perspective on Economic Sociology / / Smelser N., Swedberg R. (eds.) The Handbook of Economic Sociology. Princeton: Princeton University Press. 1994. P. 166-180<br>Смелзер Н., Сведберг Р. Социологический подход к анализу хозяйства (1994): Пер. с англ. М.С. Добряковой / / |

| | | | |
|---|---|---|---|
| | | | Экономическая социология. 2003. № 4. С. 43-61. |
| **7.** | Sosial iqtisadiyyatın təşkili formaları | Mövzuda ilk olaraq sosial sosial institutun mahiyyəti açıqlanır. Bununla yanaşı olaraq sosial institutların əsas məqsədi , funksiyaları və xüsusiyyətləri də göstərilir.<br>Mövzuda daha sonra sosial təşkilatların əsas xüsusiyyətləri verilmiş və onlara uyğun olaraq sosial təşkilatın müxtəlif alt sistemlərdən və elementlərdən ibarət bütöv bir sosial sistem olduğu izah edilmişdir | 1.Радаев В.В. Экономическая социология: учеб. пособие для вузов. М.: Изд. дом ГУ ВШЭ, 2005. 603 с. (Серия Учебники Высшей школы экономики).<br><br>2.История экономических учений / Под ред. В. Автономова, О. Ананьина, Н. Макашовой. – М., 2000.<br>3. Беккер Гэри. Экономика семьи и макроповедение // США: экономика, политика, идеология. – 1993. - N 2-3. |
| **8.** | Sosial iqtisadiyyatın tənzimlənməsi | Mövzuda iqtisadi tənzimlənmənin sosial mexanizmi haqqında danışılır və burada sosial subyektlərin iqtisadi davranış növlərinin dayanıqlı strukturu,xidmətlərin və maddi nemətlərin istehsal və bölgüsü,onların bir-biri ilə əlaqəsi öyrənilir | Etzioni A. Toward a new socio-economic paradigm / / Socio-Economic Review. 2003. N 1. P. 105-118<br>7. Социоэкономика (для экономистов, менеджеров, госслужащих): Учебное пособие / М.А. Шабанова. — Москва: Экономика, 2012. - 559 с |
| **9.** | Sosial-iqtisadi siyasətin mahiyyəti və əsas əlamətləri | Bu mövzuda sosial-iqtisadi siyasətin iqtisadi aspektləri,onların ümumi xüsusiyyətləri və əlaqələri öyrənilir | Coleman J.A. Rational Choice Perspective on Economic Sociology / / Smelser N., Swedberg R. (eds.) The Handbook of Economic Sociology. Princeton: Princeton University Press. 1994. P. 166-180<br>Смелзер Н., Сведберг Р. Социологический подход к анализу хозяйства (1994): Пер. с англ. М.С. Добряковой / / Экономическая социология. 2003. № 4. С. 43-61. |
| 10. | . İnsan həyatının iqtisadi | Bu mövzuda ilk olaraq insan həyatının dəyərinin qiymətləndirilməsi öyrənilir. Və bu qiymətləndirməni apararkən insan həyatının iqtisadi qiymətləndirilməsi nəticəsində ziyan görmüş | Макклелланд Д. Мотивация человека. – М.: ЮНИТИ-ДАНА, 2007 |

| | | | |
|---|---|---|---|
| | qiymətləndiril məsi | insanların sosial və iqtisadi funksiyalarının olmamasından dəyən ziyanlar hesablanır | 2. Слезингер Г.Э. Социальная экономика плюс социальная организация труда // Человек и труд. 2006. - № 7. |
| **11.** | İqtisadi həyat resursları : xərclər,satınalm mləmə imkanla | Mövzuda istənilən iqtisadi bir sistemdə yaxud ondan kənarda olmasına baxmayaraq bu fəaliyyətə necə təsir etdiyini bilmək üçün mədəniyyətin əsas sayılan funksiyaları (inteqrativ,ötürücü,tənzimləyici, innovativ) öyrənilir | Шабанова МЛ. Социоэкономика и социально-экономическая политика / / Экономическая наука современной России. 2007. № 3. С. 34-48.<br>5. Keizer P. A socio-economic framework of interpretation and analysis / / International Journal of Social Economics. 2005. Vol. 32. N 1-2. P. 155-173. |
| **12.** | Vətəndaşların resursları və iqtisadi əhəmiy | Mövzuda vətəndaş cəmiyyətinin formalaşması şərtləri və amilləri göstərilir və sosial resursların aspektlərinin təhlili üçün ən uyğun olan tərif göstərilir | Шабанова МЛ. Социоэкономика и социально-экономическая политика / / Экономическая наука современной России. 2007. № 3. С. 34-48. |
| **13.** | Sosial resursl rəqabət üstünlü | Mövzuda iqtisadi resurslarla müqayisədə sosial resursların spesifik xüsusiyyətləri araşdırılır və sosial-iqtisadi təhlildə onların ən faydalı olanları qeyd olunur | . Биггарт Н. Социальная организация и экономическое развитие / Пер. М.С. Добряковой / / Экономическая социология. 2001. № 5. С. 49-58. www.ecsoc.msses.ru; Fukuyama F.Trust. The Social Virtues and the Creation of Prosperity. N.Y.: Free Press, 1996<br>2. Delhey J.} Newton K. Who trusts? The origins of social trust in seven societies / / European Societies. 2003. Vol. 5. № 2. P. 93-137 |
| **14.** | Xarici sosial problemlər,şirk | Mövzuda etik investisiyanın əsas üsulları öyrənilir və institusional mühitdə | Карлсон А. Шведский эксперимент в демографической политике: Гуннар и Альва |

| | | | |
|---|---|---|---|
| | yeni xərclər və qazanclar | işgüzar nüfuz araşdırılır,işgüzar nüfuza təsir edən sosial amillər izah olunur | Мюрдали и межвоенный кризис народонаселения / пер. с англ. — М.:ИРИСЭН, Мысль, 2009 – 312<br><br>Сенчагов В. Экономическая безопасность: геополитика, глобализация, самосохранение и развитие. Книга четвертая. – М.: Финстатинформ, 2002. |
| **15.** | İnklüziv iqtisad dayanıqlı sosial inkişaf. | Bu mövzuda inklüzivliyi artırmaq üçün mexanizmlər və alətlər araşdırılır ,korporativ sosial məsuliyyətin əsas prinsipləri izah edilir. Korporativ sosial məsuliyyətin əsas məqsədləri və bu məqsədlərə çatmaq üçün lazım olan tədbirlər şərh olunur. | Viscusi W.K., Aldy J.E. The Value of a Statistical Life: A Critical Review of Market Estimates Throughout the World / / The Journal of Risk and Uncertainty. 2003. Vol.27. N 1. P. 5-76<br>Viscusi W.K. The heterogeneity of the value of statistical life: Introduction and overview //Jou rn al of Risk and Uncertainty. 2010. Vol. 40. N 1. P. 1-13. |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (*Əyani təhsilalma forması üzrə*)

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara

onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

## TƏCRÜBƏ

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.

**TƏRTİB ETDI:**  **Əliyeva Nərgiz Əmiraslan q.**